AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# AYLIQ İNFORMASİYA BÜLLETENİ

# OKTYABR

## İSTEHLAKÇILARLA İŞ DEPARTAMENTİ





2023

İSTEHLAKÇILARLA İŞ DEPARTAMENTİNİN AYLIQ İNFORMASİYA BÜLLETENİ AYLIQ OLARAQ BAŞ VERƏN YENİLİKLƏR BARƏDƏ MƏLUMATLANDIRMA MƏQSƏDİ İLƏ HAZIRLANIB

## Astara rayonunda fəaliyyət göstərən səhmdar cəmiyyətləri ilə görüş keçirilib

Oktyabr ayının 4-də Azərbaycan Respublikası Mərkəzi Bankının əməkdaşlarının Astara rayonunda fəaliyyət göstərən səhmdar cəmiyyətləri ilə görüşü baş tutub.

Görüşdə Mərkəzi Bank əməkdaşları tərəfindən səhmdar cəmiyyətlərində korporativ idarəetmənin təkmilləşdirilməsi, emitentlərin illik hesabatlarının qanunvericilikdə nəzərdə tutulmuş qaydada tərtib edilməsi, eləcə də səhmdarların ümumi yığıncaqlarının çağırılması və cəmiyyətlərin fəaliyyətinin qanunvericiliyə uyğun həyata keçirilməsi istiqamətində praktiki tövsiyələr səsləndirilib.

Qeyd edək ki, Astara Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən bu görüş səhmdarların hüquqlarının qorunmasının vacibliyi, həmçinin bu sahədə qanunvericiliyin səhmdar cəmiyyətlərinin idarəetmə orqanlarına qarşı tələblərinin daha müfəssəl izah olunmasının əhəmiyyəti nəzərə alınaraq təşkil olunub.

Mərkəzi Bank tərəfindən səhmdarların hüquqlarının qorunması istiqamətində müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulur.

**Əlilliyi olan şəxslərin maliyyə xidmətlərindən istifadəsi zamanı hüquqlarının müdafiəsi və müyəssərliyin təmin edilməsi çərçivəsində işlərin görülməsi davam edir.**

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən əlilliyi olan şəxslərin maliyyə xidmətlərindən istifadəsi zamanı onlara qarşı bərabərlik prinsipi ilə yanaşılması, əlçatanlığın təmin edilməsi, eləcə də sosial məsuliyyətin artırılması istiqamətində bir çox tədbirlər həyata keçirilmişdir.

Mərkəzi Bankın təşəbbüsü ilə Azərbaycan Banklar Assosiasiyası (ABA) və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) arasında imzalanan 25 iyun 2023-cü il tarixli birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumu çərçivəsində 04.10.2023-cü il tarixdə ilk görüş keçirilmişdir. Görüş zamanı əlilliyi olan şəxslərin maliyyə xidmətlərindən istifadəsi zamanı müyəssərliyin təmin edilməsi, kreditləşmə zamanı ayrı-seçkiliyə yol verilməməsi kimi məsələlər müzakirə edilmiş və Mərkəzi Bank tərəfindən bu istiqamətdə görülmüş işlər barədə tədbir iştirakçılarına məlumatlar verilmişdir.

Bu işlərin davamı olaraq Mərkəzi Bank tərəfindən bankların rəsmi internet səhifələrində müyəssərlik menyusunun təmin edilməsi barədə ABA-ya müraciət ünvanlanmışdır. Sözügedən məktuba əsasən respublika ərazisində fəaliyyət göstərən əksər bankların rəsmi internet səhifəsində artıq müyəssərlik menyusunun yaradılması təmin edilmişdir.

Eyni zamanda sözügedən məsələlərin müzakirəsi ilə bağlı Mərkəzi Bank, “DOST” Agentliyi və ABA-nın iştirakı ilə 25.10.2023-cü il tarixdə görüş keçirilmiş və görüş zamanı “DOST” Agentliyi tərəfindən əlilliyi olan şəxslərin maliyyə xidmətlərindən istifadəsi zamanı müyəssərliyinin təmini məqsədilə müəyyənləşdirilmiş standart şərtlər toplusu təqdim edilmişdir.



Mərkəzi Bank tərəfindən bu məsələlərin diqqətdə saxlanılması və bu istiqamətdə görülmüş tədbirlərin davam etdirilməsi planlaşdırılır.

## Vətəndaşların yazılı müraciətləri üzrə məmnuniyyət səviyyəsinin ölçülməsi

Azərbaycan Respublikasının Mərkəzi Bankı maliyyə xidmətləri istehlakçılarının hüquqlarının qorunmasını və istehlakçı məmnuniyyətinin yüksəldilməsini daim diqqət mərkəzində saxlayır. Belə növbəti addımlardan biri kimi, vətəndaşların Mərkəzi Bank tərəfindən cavablandırılan yazılı müraciətləri üzrə məmnuniyyət səviyyəsinin ölçülməsi və müvafiq struktur bölmənin fəaliyyətinin dəyərləndirilməsi məqsədi ilə cavab məktublarında qiymətləndirmənin aparılması üçün sorğu imkanı yaradılmışdır. Belə ki, qeyd olunan sorğuya keçid cavab məktublarında yerləşdirilmiş və cavab məktubunu əldə etmiş müraciət müəllifləri həmin keçid vasitəsilə müvafiq sualları cavablandıraraq qiymətləndirmədə iştirak edə bilərlər.

Bildiririk ki, bundan öncə Mərkəzi Bankın Bülbül prospekti 27 ünvanında yerləşən inzibati binasının "Qəbul otağı"nda da məmnuniyyət səviyyəsinin ölçülməsi məqsədilə vətəndaşların skan edə biləcəyi "QR-kod" və eyni zamanda sorğu anketi yerləşdirilmişdir.

Bundan başqa, Mərkəzi Bankın "966" Qaynar xəttinə daxil olan zənglərin də qiymətləndirilməsi prosesinin həyata keçirilməsi istiqamətində işlər aparılır.



SORĞULAR

**Qeyd: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunundan çıxarış:**

**1.** Bu Qanunun 9.2-ci, 9.6-cı və 10.2-10.4-cü maddələrində göstərilən hallar istisna olmaqla, vətəndaşların müraciətlərinə ən geci 15 iş günü, əlavə öyrənilmə və yoxlanılma tələb edən müraciətlərə isə ən geci 30 iş günü müddətində baxılır.

**2.** Bu Qanunun 9.2-ci, 9.6-cı, 10.3-cü və 10.4-cü maddələrində göstərilən hallar istisna olmaqla, müraciətə baxılması üçün əlavə məlumatların əldə edilməsi və ya aidiyyəti üzrə sorğu göndərilməsi tələb edildikdə, müraciətə baxan subyektin vəzifəli şəxsinin müraciətə baxılması müddətini ən çoxu 30 iş günü uzatmaq hüququ vardır.

**3.** Hərbi qulluqçuların və onların ailə üzvlərinin müraciətlərinə daxil olduğu gündən etibarən ən geci 15 iş günü ərzində baxılır.

**4.** Əgər məlumatın verilməsi barədə müraciətə yuxarıda göstərilən müddətlərdə baxılması nəticəsində lazım olan məlumat öz əhəmiyyətini itirə bilərsə, həmin müraciətə dərhal, bu mümkün olmadıqda, müraciətin daxil olduğu andan 24 saat keçənədək baxılmalıdır.

**5.** Korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciət daxil olduqda dövlət orqanının rəhbəri müraciət üzrə xidməti araşdırma təyin edir. Xidməti araşdırmanı müvafiq dövlət orqanında daxili nəzarət xidməti aparır. Xidməti araşdırma 20 iş günü müddətində başa çatdırılmalı və nəticəsi barədə məlumat dövlət orqanının rəhbərinə təqdim olunmalıdır. Əlavə materialların və məlumatların əldə edilməsi tələb olunduqda dövlət orqanı rəhbərinin bu müddəti 10 iş günü uzatmaq hüququ vardır.

Qanun



Mərkəzi Banka daxil olan yazılı müraciətlərin cavablandırılması üzrə məmnuniyyət sorğusu

Cavab verən

1. Ad, soyad, ata adı

2. Əlaqə nömrəsi

Suallar

1. Mərkəzi Banka şikayət etmək hüququnuzun sərbəst həyata keçirilməsi üçün şərait yaradılmışdırmı?
- Bəli
- Xeyr

2. Mərkəzi Banka müraciət etmək barədə məlumatı haradan əldə etdiniz?
- Media
- Sosial Şəbəkələr
- Tanışın tövsiyyəsi
- Digər

3. Müraciətinizin qeydiyyata alınması və cavablandırılması barədə SMS daxil oldumu?
- Bəli
- Xeyr

4. Müraciətiniz qanunvericiliklə müəyyən edilmiş müddətdə cavablandırıldımı?
- Bəli
- Xeyr

5. Müraciətiniz mahiyyəti üzrə cavablandırıldımı?
- Bəli
- Xeyr

6. Təklif və şikayət

Göndər

# VƏTƏNDAŞ MÜRACİƏTLƏRİ İLƏ BAĞLI STATİSTİK MƏLUMAT

## Daxil olan zənglər




## Yazılı müraciətlər




## Vətəndaşların qəbulu




Bank | Sığorta | Kapital bazarı | Digər

## Whatsapp üzərindən qeydiyyata alınmış müraciətlər haqqında məlumat




- Mərkəzi Bankın rəsmi cavab məktubunun əldə edilməsi ilə bağlı
- Əks Əlaqə
- Nəzarət subyekti ilə əlaqə saxlanılmasında yaranan çətinliklə bağlı
- Digər

## Maliyyə savadlılığının artırılması üzrə strategiyanın formalaşdırılması məqsədilə Azərbaycan Banklar Assosiasiyası (ABA) nəzdində işçi qrupu yaradılmışdır

Maliyyə savadlılığının artırılması cəmiyyət və bank sektoru üçün olduqca əhəmiyyətli bir məsələdir və bu istiqamətdə istər AMB, istərsə də banklar tərəfindən davamlı işlər görülməkdədir.

Tədbirlərin davamlılığı ilə yanaşı işlərin bütün maraqlı tərəflərin iştirakı ilə vahid plan üzrə həyata keçirilməsi də bir o qədər mühüm əhəmiyyət kəsb etməkdədir.

Qeyd edilənləri nəzərə alaraq, maliyyə savadlılığının artırılması üzrə strategiyanın formalaşdırılması və tədbirlər planının hazırlanması proseslərində iştirak etmək məqsədilə ABA nəzdində işçi qrupu yaradılmışdır.

İşçi qrupun tərkibi:

- Qrup sədri - Çingiz Əsədov / ABA-nın “Marketing və PR üzrə Ekspert Qrupu”nun üzvü, “Bank Respublika” ASC-nin Marketinq Departamentinin Direktor müavini;
- Əzizağa Haxverdiyev / ABTM-in direktoru, ABA-nın Baş iqtisadçısı;
- Vüsal Həsənov / ABA-nın aparıcı iqtisadçısı;
- Yedgar Cəfərov / ABB ASC-nin Marketinq departamentinin Korporativ kommunikasiya şöbəsinin müdiri;
- Sülhiyyə Şirinova / “Unibank” KB ASC-nin İctimaiyyətlə əlaqələr və Media şöbəsinin müdiri;
- Arzu Əliyeva / “Kapital Bank” ASC-nin İctimaiyyətlə əlaqələr üzrə proses sahibi;
- Nigar Məmmədova / “Kapital Bank” ASC-nin Marketinq kommunikasiyaları üzrə proses sahibi.

## Maliyyə Savadlılığı portalında yenilik

Maliyyə Savadlılığının artırılması üçün nəzərdə tutulan elektron resurslar daim yenilənir və təkmilləşdirilir. Növbəti iş Maliyyə Savadlılığı portalında Sual-Cavab rubrikasının yenilənməsi oldu.




Beləliklə, burada əvvəl mətn formasında qeyd olunan məlumatlar müxtəlif mövzularda video formatında çarxlar ilə əvəzlənmişdir.




Bundan əlavə, səhifədə, həmişəki kimi, video çarxların ad, tarix və baxışlara görə sıralanması funksiyası nəzərdə tutulmuşdur (həm artan istiqamətdə, həm də azalan).

## Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyasının (ARPA) üzvləri üçün Maliyyə savadlılığı seminarları

Azərbaycan Respublikasının Mərkəzi Bankı maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi istiqamətində işlər görür, eyni zamanda onların maliyyə savadlılığının artırılması üçün tədbirlər təşkil edir.

Bu tədbirlərin davamı olaraq 10, 12, 17, 19, 24, 26 və 31 oktyabr 2023-cü il tarixlərində ARPA üzvlərinə aşağıda qeyd olunmuş mövzular üzrə seminarlar keçirilmişdir:

- Mərkəzi Bankın maliyyə savadlılığının artırılması məqsədilə hazırlanmış elektron resursları (infobank.az, edu.e-cbar.az, bizimpullar.az);
- Kapital bazarları/Qiymətli kağızlar ;
- Əmanətlərin sığortalanması;
- İstehlak kreditlərinin xüsusiyyətləri;
- Rəqəmsal ödənişlərdən istifadənin üstünlükləri;
- Milli pul nişanları və onların saxtalaşdırılmasına qarşı mübarizə;
- Vətəndaşlar üçün sığorta;
- Neyromarketinq;
- Kredit tarixçəsi.

Seminar zamanı regionlarda fəaliyyət göstərən iştirakçılar üçün də onlayn platformada mövzuları dinləmək imkanı yaradılmışdır. İştirakçıların mövzular ətrafında verdikləri suallar cavablandırılmışdır. ARPA üçün nəzərdə tutulan silsilə seminarlar proqram əsasında davam etdiriləcəkdir.





## Əlilliyi olan şəxslər üçün maliyyə savadlılığı üzrə seminarlar keçirilmişdir

Azərbaycan Respublikasının Mərkəzi Bankı maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi istiqamətində görülən işlərin davamı olaraq 12, 16, 18, 25 oktyabr 2023-cü il tarixlərində Azərbaycan Əlil Təşkilatları İttifaqının nümayəndələri üçün onlayn aşağıda qeyd olunmuş mövzularda seminarlar təşkil etmişdir:

- Mərkəzi Bankın maliyyə savadlılığının artırılması məqsədilə hazırlanmış elektron resursları (infobank.az, edu.e-cbar.az, bizimpullar.az);
- Rəqəmsal ödənişlərdən istifadənin üstünlükləri;
- Əmanətlərin sığortalanması;
- İstehlak kreditlərinin xüsusiyyətləri;
- Vətəndaşlar üçün sığorta.

Seminarlarda mövzular ətrafında müzakirələr aparılmış və iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

Əlilliyi olan şəxslər üçün nəzərdə tutulan silsilə seminarlar proqram əsasında davam etdiriləcəkdir.







## “İrəli” İctimai Birliyi ilə görüş keçirilmişdir

25 oktyabr 2023-cü il tarixində “İrəli” İctimai Birliyinin İdarə Heyətinin sədri Şahin Rəhmanlı, Baş katib İlqar Axundov və Layihələr üzrə baş katib Raziyə Dadaşzadə ilə Mərkəzi Bankda görüş keçirilmişdir. Görüşdə gənclərin istehlakçı hüquqlarının qorunması və onların maliyyə savadlılığının artırılması istiqamətində görüləbiləcək işlər müzakirə edilmişdir.

## Mediasiya Şurası üçün Maliyyə savadlılığı seminarları keçirilmişdir

Azərbaycan Respublikasının Mərkəzi Bankı maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi istiqamətində görülən işlərin davamı olaraq 06, 13, 20 oktyabr 2023-cü il tarixlərində Mediasiya Şurasının mediatorlarına aşağıda qeyd olunmuş mövzular üzrə seminar keçirilmişdir:

- Əmanətlərin sığortalanması;
- Kapital bazarları/Qiymətli kağızlar;
- Kredit tarixçəsi.

Seminarlar zamanı regionlarda fəaliyyət göstərən mediatorlara da onlayn platformada mövzuları dinləmək imkanı yaradılmışdır. İştirakçıların mövzular ətrafında verdikləri suallar cavablandırılmışdır.





## “Bankçılıq və rəqəmsal ödənişlər” virtual kursu üzrə müsabiqə elan edilir

Azərbaycan Respublikasının Mərkəzi Bankı Maliyyə savadlılığının gücləndirilməsi, ölkəmiqyaslı rəqəmsal ödənişlər ilə bağlı məlumatlılığın artırılması məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirdir.

Ümumtəhsil məktəblərində Maliyyə savadlılığının ictimai dəyər kimi tanınması, şagirdlərin rəqəmsal ödənişlər ilə bağlı biliklərinin artırılması, həmçinin maliyyə məsələləri ilə bağlı düzgün qərarlar vermək vərdişlərinin yaradılması və inkişaf etdirilməsi məqsədilə Mərkəzi Bank Beynəlxalq Əmanət Günü (31 oktyabr) və Maliyyə Savadlılığı ayı (noyabr) çərçivəsində Bankçılıq və rəqəmsal ödənişlər / Банковское дело и цифровые платежи virtual kursu üzrə 16 oktyabr – 01 dekabr 2023-cü il tarixlərində müsabiqə elan edir.

Kurs Mərkəzi Bankın iqtisadi maarifləndirmə məqsədilə yaratdığı Virtual Təhsil Platformasında təqdim edilmişdir (https://edu.e-cbar.az/).

**Müsabiqənin şərtləri:**

Kurs: *Bankçılıq və rəqəmsal ödənişlər*

Məqsəd: *Əhalinin maliyyə savadlılığının, o cümlədən bank, maliyyə, sığorta məhsulları üzrə bilik və bacarıqlarının artırılması, Virtual Təhsil Platformasının əhali arasında təşviq edilməsi*

Hədəf qrupu:
*6-9-cu sinif şagirdləri*

Yekun imtahanlar üçün son müraciət tarixi – *16 noyabr 2023-cü il*

Müraciət üçün e-poçt ünvanı: *edu@cbar.az*

Telefon: *0502090391*



## “Bankçılıq və rəqəmsal ödənişlər” virtual kursu üzrə müsabiqə elan edilir (davam)

**İştirak üçün şərtlər:**
Müsabiqədə iştirak üçün bütün şagirdlərin Mərkəzi Bankın Virtual Təhsil Platrofmasında (https://edu.e-cbar.az/) Uşaqlar və pullar/Дети и деньги/Children and money kurslarının birindən sertifikatının olması vacibdir. Qeyd edilən kursların birindən sertifikat almış şagirdlər Bankçılıq və rəqəmsal ödənişlər/Банковское дело и цифровые платежи kurslarının birindən qeydiyyatdan keçib, dərsləri dinləməli və yekun imtahan üçün Virtual Təhsil Platforması vasitəsilə yekun imtahana müraciət etməlidirlər. İmtahanların vaxtı iştirakçılarla razılaşdırmaqla Mərkəzi Bankın Bülbül 27 ünvanında yerləşən binasında fiziki və ya iştirakçıya uyğun məkandan onlayn təşkil edilə bilər.

Şagirdlərin müsabiqədə iştirakına dəstək üçün məktəblər özləri də imtahan vermək istəyən şagirdlərin siyahısını toplayaraq yekun imtahanın təşkili üçün Mərkəzi Banka təqdim edib, məktəbin özündə imtahanın təşkili üçün müraciət edə bilərlər. Məktəb topladığı siyahını 16 noyabr tarixinədək yuxarıda verilmiş e-poçt ünvanına göndərərək yekun imtahan üçün müraciət etməlidir.

Müsabiqə çərçivəsində 70% və daha yuxarı bal toplayan şagirdlərə sertifikat və həvəsləndirici hədiyyələr, ən yaxşı nəticə göstərən 30 şagirdə isə sertifikatlarla yanaşı qiymətli hədiyyələr təqdim ediləcəkdir.

Diqqət! Müsabiqədə ancaq 16 oktyabr 2023-cü il tarixinə qədər Bankçılıq və rəqəmsal ödənişlər/ Банковское дело и цифровые платежи kurslarından imtahan verməmiş şagirdlər iştirak edə bilərlər.

## Ümumtəhsil məktəblərinin müəllimləri arasında müsabiqə elan edilir

Azərbaycan Respublikasının Mərkəzi Bankı maliyyə savadlılığının gücləndirilməsi, rəqəmsal ödənişlər ilə bağlı əhalinin məlumatlılığının, bilik və bacarıqlarının artırılması məqsədilə genişmiqyaslı tədbirlərin həyata keçirilməsini davam etdirir. Görülən tədbirlər çərçivəsində hədəf qruplarından biri də ümumtəhsil müəssisələrinin müəllimləridir.

Müəllimlərin həm təhsilverən olaraq tədris proqramı çərçivəsində mövcud olan müxtəlif maliyyə savadlılığı mövzularını tədris etməsi, həmçinin bank-maliyyə məhsullarının ən aktiv istifadəçilərindən olmaları onların maliyyə savadlılığının artırılmasını zəruri edir.

Qeyd edilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Mərkəzi Bankı Beynəlxalq Əmanət Günü (31 oktyabr) və Maliyyə Savadlılığı ayı (noyabr) münasibətilə ümumtəhsil məktəblərinin müəllimlərinin iştirakı ilə 16 oktyabr - 01 dekabr 2023-cü il tarixlərində 3 kurs üzrə müsabiqə elan edilir.

Kurslar:

1. **İzafi borclanma: problemlər və tövsiyələr**
(https://edu.e-cbar.az/course/preview.php?id=97);

2. **Vətəndaşlar üçün sığorta**
(https://edu.e-cbar.az/course/preview.php?id=104);

3. **Maliyyə Savadlılığı: Strategiya, Tədris, Təhlil**
(https://edu.e-cbar.az/course/view.php?id=105)

**Məqsəd:** Əhalinin maliyyə savadlılığının, o cümlədən bank, maliyyə, sığorta məhsulları üzrə bilik və bacarıqlarının artırılması, Virtual Təhsil Platformasının əhali arasında təşviq edilməsi

## Ümumtəhsil məktəblərinin müəllimləri arasında müsabiqə elan edilir (davam)

Hədəf qrupu:
Ümumtəhsil məktəblərinin müəllimləri
Yekun imtahanlar üçün son müraciət tarixi – *16 noyabr 2023-cü il*
Müraciət üçün e-poçt ünvanı: *edu@cbar.az*
Telefon: *0502090391*




**İştirak üçün şərtlər:**
Müsabiqə iştirakçıları Mərkəzi Bankın Virtual Təhsil Platformasında (https://edu.e-cbar.az/ ) 1. *Maliyyə savadlılığı: Strategiya, Tədris, Təhlil*, 2. *İzafi borclanma: problemlər və tövsiyələr*; 3. *Sığorta xidmətləri: vətəndaşlar üçün* kurslarından qeydiyyatdan keçib, dərsləri dinləməli və kursların sonunda qeyd edilən formada, yuxarıda qeyd edilən tarixlər çərçivəsində yekun imtahan üçün müraciət etməlidirlər. İmtahanlar, vaxtı iştirakçılarla razılaşdırmaqla, Mərkəzi Bankın Bülbül 27 ünvanında yerləşən binasında fiziki və ya onlayn təşkil edilə bilər. Kurslardan 70% və yuxarı nəticə göstərən müəllimlərə sertifikat veriləcək. Hər üç kursdan minimum 70% toplamış və orta balı ən yüksək olan 10 iştirakçıya qiymətli hədiyyələr təqdim ediləcəkdir.

**Diqqət!** Müsabiqədə bu günə qədər yuxarıda qeyd olunan 3 kursdan uğurlu nəticəsi olmayanlar iştirak edə bilərlər.

## ADA Universitetində əcnəbi tələbələr üçün məlumatlandırma sessiyası keçirilmişdir

16 oktyabr 2023-cü il tarixində ADA Universitetində Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBILAZE 2)" layihəsi çərçivəsində Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin (MSİBM) və Dövlət Miqrasiya Xidməti (DMX) ilə birgə Azərbaycanda yaşayan miqrantlar və qaçqınlar üçün İnteqrasiya Proqramı fəaliyyətləri çərçivəsində ADA-da təhsil alan əcnəbi tələbələr üçün İnteqrasiya Programı haqqında məlumatlandırma sessiyası keçirilmişdir.

Tədbirdə inteqrasiya proqramının xidmətlərindən və həmin xidmətləri dəstəkləyən dövlət və qeyri-dövlət qurumlarından, bundan əlavə seminar iştirakçılarına Mərkəzi Bankın elektron resursları Maliyyə savadlılığı portalı (bizimpullar.az), Virtual təhsil platforması (edu.e-cbar.az) və Maliyyə məhsul və xidmətlərinin məlumat-axtarış sisteminə (infobank.az) dair təqdimat edilmişdir.



## Maliyyə savadlılığı üzrə Azərbaycan Banklar Assosiasiyasının nümayəndələri ilə görüş keçirilmişdir

Mərkəzi Bankın İstehlakçılarla iş departamentinin əməkdaşları ilə Azərbaycan Banklar Assosiasiyasının maliyyə savadlılığı üzrə yeni yaradılmış işçi qrupunun üzvləri arasında 26 oktyabr 2023-cü il tarixində görüş keçirilmişdir. Görüş zamanı müxtəlif hədəf qruplarının maliyyə savadlılığının artırılması istiqamətində görülmüş işlər, o cümlədən maarifləndirmə istiqamətində birgə əməkdaşlıq imkanları müzakirə edilmişdir. Görüş nəticəsində qarşılıqlı tədbirlərin keçirilməsi planlaşdırılır.





## Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən dəstək alan sahibkar üçün Maliyyə savadlılığı seminarları keçirilmişdir

Azərbaycan Respublikasının Mərkəzi Bankının maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi istiqamətində gördüyü işlərin davamı olaraq 17, 19, 24, 26 və 31 oktyabr 2023-cü il tarixlərində Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən dəstək alan 15 sahibkar üçün “Vətəndaşlar üçün sığorta”, “Neyromarketinq”, “Kredit tarixçəsi”, “Sahibkar və kredit”, “Sığorta maarifləndirilməsi” və “Milli pul nişanları və onların saxtalaşdırılmasına qarşı mübarizə” mövzularında virtual seminarlar təşkil etmişdir.

Bundan əlavə, iştirakçılar Mərkəzi Bankın maliyyə savadlılığının artırılması məqsədilə hazırlanmış elektron resursları (infobank.az, edu.e-cbar.az, bizimpullar.az) ilə də tanış olmuşdular.

Seminarlarda mövzular ətrafında müzakirələr aparılmış və iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.







## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyində görüş keçirilmişdir

30 oktyabr 2023-cü il tarixində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyində görüş keçirildi. Görüşdə ölkədə maliyyə savadlılığı üzrə götürən işlər haqqında məlumat verilmişdir, bu sahədə istifadə olunan elektron resurslar təqdim olunmuşdur, orta və ali məktəblərdə maliyyə savadlılığın inkişafı, müəllimlər, tələbə və şagirdlər arasında təbliğat-təşviqat prosesləri haqqında müzakirə aparılmışdır. Görülən işlərin birgə koordinasiya olunması haqqında razılıq əldə olunmuşdur.

# TƏDBİRLƏR üzrə STATİSTİKA




**18** İmtahan

**13** Sertifikat

Təlim, seminar, vebinar **22**

İştirakçı **127**

İştirak **523**



# ELEKTRON RESURSLAR üzrə STATİSTİKA

## Ziyarətçilər




## Baxışlar




bizimpullar.az | edu.e-cbar.az | infobank.az